# Dövlət başçısının Gəncəyə hər səfəri yeni uğurlara stimul yaradır

**Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycanın milli maraqlarına, onun dinamik inkişafına, xalqın həyat səviyyəsinin yüksəldilməsinə xidmət edən inkişaf strategiyası uğurla həyata keçirilir.**













Respublikamızın sosial-iqtisadi həyatında baş verən irimiqyaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri nəticəsində ölkəmizin iqtisadi qüdrəti daha da artmış, onu qloballaşan dünyanın nüfuzlu dövlətlərindən birinə çevirmişdir. Xüsusilə, son illər həyata keçirilən dövlət proqramları hər bir Azərbaycan vətəndaşının rifah halını yaxşılaşdırmış, davamlı inkişaf üçün geniş imkanlar açmışdır. Bunu respublikamızın ikinci böyük şəhəri olan Gəncənin timsalında da aydın görmək olur. Dövlət başçısının müvafiq fərmanları ilə təsdiq edilmiş regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası qədim Nizami yurdunun simasını dəyişmiş, insanların uzun illərdən bəri qarşılaşdıqları problemlərə, demək olar, son qoymuşdur. İnşaat meydançasını xatırladan Gəncə həyata keçirilən yenidənqurma, abadlıq və quruculuq işləri sayəsində Avropa şəhərləri ilə müqayisə olunacaq səviyyəyə yüksəlmişdir.

Respublika Prezidenti İlham Əliyevin siyasi kursunu gündəlik fəaliyyətlərində əldə rəhbər tutaraq şəhərin ictimai-siyasi, sosial-iqtisadi həyatında uğurlara nail olan şəhər sakinləri cari ilin birinci rübünü də yüksək göstəricilərlə yola salmışlar. Fevralın 17-də dövlət başçısının Gəncəyə səfəri də insanlarda ruh yüksəkliyi artırmış, onları yeni uğurlara ruhlandırmışdır. Nəticədə 2016-cı ilin birinci rübündə istər özəl, istərsə də dövlət sektorunda həyata keçirilən tədbirlər müsbət nəticə vermişdir.

Ötən rüb ərzində ümumdaxili məhsul istehsalının həcmi keçən ilin müvafiq dövründəkindən 13,4 faiz çox olmuşdur. İstehsal olunan məhsulların çeşidliliyinə, onların əhatə dairəsinin genişliyinə görə mühüm əhəmiyyətə malik emal sənayesində istehsal 63 milyon 495 min manat təşkil etmiş, işlərin 67,4 faizi bilavasitə qeyri-dövlət subyektləri tərəfindən həyata keçirilmişdir. Emal sənayesinin strukturunda metallurgiya sənayesi və avtomobil, qoşqu və yarımqoşqular istehsalı aparıcı yer tutmuşdur. İstehsal olunan məhsulun 52,8 faizi respublika daxilində satılmış, 47,2 faizi Rusiya, Türkiyə, Ukrayna və digər ölkələrə ixrac olunmuşdur. "Cihazqayırma zavodu" ASC-də, "Elba" MMC-də, "Azeri-Arapoğlu", "DET.AL alüminium" MMC-də, "Neaon" firmasında, Gəncə "Şərab-2" ASC-də, "Asmet LTD" MMC-də, "Sem-San" şirkətində əlavə olaraq 16 milyon manatdan çox məhsul istehsal olunmuşdur. Dövlət başçısının iştirakı ilə "İmamzadə" ziyarətgahı, Gəncə çayının sağ sahilində salınmış park-bulvar kompleksi, "Avropa Gənclər Paytaxtı" parkı, ADAU-nun 514 nəfərlik mehmanxana tipli tələbə yataqxanası, Abbas Səhhət adına xəstəxana, eləcə də digər sosial obyektlər istifadəyə verilmişdir.

Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan təhsil sisteminin milli dəyərləri saxlanılmaqla dünya təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılması, təhsil islahatlarının uğurla davam etdirilməsi bu sahədə müsbət nəticələrin əldə olunmasına geniş imkanlar açmışdır. Təhsilin məzmunca yeniləşməsi, onun müasir tələblər səviyyəsində formalaşması, maddi-texniki bazasının möhkəmləndirilməsi, tədris binalarının yenilənməsi diqqət mərkəzində saxlanılmışdır. Bu məqsədlə Mir Cəlal Paşayev adına 39 saylı məktəbdə 1200 şagird yerlik əlavə tədris korpusu istifadəyə verilmişdir.

Dövlət başçısının iştirakı ilə fevralın 17-də əsaslı təmirdən sonra istifadəyə verilən Abbas Səhhət adına xəstəxana nəinki şəhər sakinləri, həmçinin region əhalisi üçün əlamətdar hadisəyə çevrilmişdir. Yüksək standartlara uyğun təmir edilmiş və ən müasir tibb avadanlıqları ilə təchiz edilmiş 245 çarpayılıq xəstəxanada səhiyyənin bütün sahələri üzrə xidmət sahələri yaradılmışdır.

XVII əsr tarix-memarlıq abidəsi olan "Şah Abbas" və "Uğurlu xan" karvansaraylarının, "Qızıl Hacılı" tarixi-memarlıq abidəsinin əsaslı təmiri və bərpası, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və mütəfəkkiri Mirzə Şəfi Vazeh muzeyinin yaradılması istiqamətində işlər görülmüşdür.

2016-cı il Avropa Gənclər Paytaxtı seçilmiş Gəncə böyük tədbirlərə hazırlaşır. Azərbaycanı, eləcə də qədim Nizami yurdunu avropalı gənclərə daha yaxından tanıtmaq üçün həyata keçiriləcək tədbirlər dönə-dönə nəzərdən keçirilməklə ciddi hazırlıq işləri aparılır.

Əvvəllər olduğu kimi, cari ilin ötən dövrü ərzində də şəhərdə infrastruktur layihələri uğurla icra olunmuşdur. Su təchizatı və kanalizasiya sisteminin yaxşılaşdırılması dövlət qayğısı ilə əhatə olunmuş, bu sahədə aparılan islahatların və müəyyən edilmiş proqramların reallaşmasına geniş imkan yaranmışdır. Hazırda Gəncə çayının sağ sahilində su və kanalizasiya xətlərinin çəkilişi işləri sürətlə davam etdirilir.

Həyata keçirilən yenidənqurma və abadlıq işləri əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində görülən işlərlə paralel aparılır. Sakinlərin maddi-rifah halının yüksəldilməsi, onların məşğulluğunun təmin edilməsi məqsədilə dövlət proqramında nəzərdə tutulmuş tədbirlər uğurla icra olunur. Bunun üçün fəaliyyəti dayanmış müəssisələrin işini bərpa etməkdən ötrü güzəştli kreditlər verilir. Ölkə əhəmiyyətli sənaye obyektlərinin işə salınması istiqamətində işlər görülür. Nəticədə şəhərin iqtisadiyyatı yüksəlməklə yanaşı, əhalinin gəlirləri də artır.

Cari ilin 3 ayında 945 nəfər daimi işlə təmin olunmuş, əhalinin orta aylıq əməkhaqqı 400 manatı keçmişdir.

Gəncədə həyata keçirilən genişmiqyaslı işlər söz yox ki, dövlət başçısı İlham Əliyevin bu qədim şəhərə səfərləri zamanı verdiyi tapşırıq və tövsiyələr nəticəsində mümkün olmuşdur. Bir sözlə, hər bir gəncəli ölkə rəhbərinin diqqət və qayğısını görür və yaşadığı şəhərin bundan sonrakı inkişafında əlindən gələni əsirgəməməyi özünün vətəndaşlıq borcu hesab edir.

**_Sabir ƏLİYEV,_**
**_"Azərbaycan"_**